# İfaçı və müəllim



**Cəmilə Mirzəyeva**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Milli Konservatoriyasının professoru*

Fitri istedad çox nadir insanlara verilən və Tanrı tərəfindən böyük mükafat kimi başa düşülən bir dəyərdir. Lakin bu istedadı düzgün istiqamətləndirmək və onu xalqından əsirgəməmək, gələcək nəsli savadlandırmaq – bax budur əsl xöşbəxtlik! Bəli, söhbətimiz fitri istedada sahib olan, barmaqlarının ecazkar ifası ilə insanı valeh edən, bununla yanaşı elm və müəllimlik sənətini də hər zaman yüksəkdə saxlamağı bacaran pianoçu, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim Naibə Məqsud qızı Şahməmmədovadan gedir.

Naibə xanım gözəl diyarımız Gəncə şəhərində doğulub, boya-başa çatıb və ilk təhsilini də məhz doğma yurdunda alıb. Uşaqlıqdan aşıb-daşan istedadı və təhsil almaq istəyi onu ilk öncə 1974-cü ildən Gəncə 3 saylı musiqi məktəbinin fortepiano sinfinə və eyni zamanda Gəncə şəhər "İnşaatçılar" mədəniyyət sarayının "Göyərçin" uşaq ansamblında müşayiətçi və solist pianoçu kimi fəaliyyət göstərməyə sövq edir. Gəncə sevgisini hər zaman qəlbində daşıyan Naibə doğma diyarını təmsil edərək hələ uşaq yaşlarından bir çox Respublika və xarici səfərlərdə uğurla çıxış edir, 1977-ci ildən 1981-ci ilə kimi isə hər il mütəmadi olaraq keçirilən Moskva şəhərinin "Ostankino" və "Orlyonok" telestudiyalarında yayımlanan "Şən notlar" uşaq verilişlərinə dəvətlər alaraq, muğamlarımızı fortepiano alətində ifa edərək hamının təəccüb və rəğbətinə səbəb olmağı bacarmışdır . "Bayatı-Şiraz", "Mahur", "Rahab" kimi ifası mürəkkəb muğamlar bu incə qızın barmaqlarının sehrinə düşürdü, sanki və bu kiçik vücudun daxilində artıq gələcəyin mahir bir pianoçusu formalaşırdı. 1978-ci il 26 aprel "Kirovabad kommunisti" qəzetinin 86 saylı dərcində Naibə haqqında məqalə belə nəşr olunmuşdur: "Naibə 1975-ci ildən "Göyərçin" uşaq xalq çalğı alətləri ansamblının fəal üzvüdür. Onun çıxışı həmişə tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Naibə respublika bədii özfəaliyyət kollektivlərinə baxışda üç dəfə qalib gəlmiş, Fəxri fərmanla mükafatlandırılmışdır. 1977-ci ilin iyun ayında ansabla şad bir xəbər gəldi. Onları Moskva "Orlyonok" studiyasına dəvət etmişdilər. Burada Naibə "Bayatı Şiraz" muğamını məharətlə ifa etdi. Hazırda ansambl Bakı şəhərində keçiriləcək Zaqafqaziya festivalının yekun konsertinə ciddi hazırlaşır. Həmin festivalda Naibənin də ifasında bir neçə solo səslənəcək". Bəli, bu səpkili yazılar ciddi və ağır sənət yolunda addımlamağa başlayan kiçik qız üçün gələcək uğurlarının göstəricisi kimi qiymətləndirilə bilərdi.



80-ci illərdən başlanan bir dövr Naibə xanım üçün daha məsuliyyətli və nailiyyətlərlə ardıcıllaşan bir zaman kimi yadda qalmış oldu. 1981-ci ildə o, Gəncə şəhər Orta İxtisas Musiqi məktəbinin fortepiano sinfinə daxil olur və bir sıra müsabiqələrdə uğurlu çıxışları ilə yadda qalır: 1983-cü ildə Mədəniyyət Nazirliyinin rəhbərliyi ilə Dağlıq Qarabağda (Xankəndində) keçirilən Musiqi ifaçılarının IV Respublika müsabiqəsində II dərəcəli diploma, 1995-ci ildə isə Bakıda keçirilən Kamera ansamblı üzrə I Respublika festivalında fəxri mükafata layiq görülmüşdür. Artıq 1985-ci ildə Naibə xanım Gəncə şəhər Orta İxtisas Musiqi məktəbini qırmızı diplomla bitirərək elə həmin ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyasının) fortepiano şöbəsinə qəbul olunaraq tələbə adını qazanmışdır. Tələbəlik illərində gənc pianoçu Konservatoriyanın professor, müəllim və tələbə heyətinin tərkibində Xankəndi, Ağdam, Şuşa, Ağcabədi, Bərdə şəhərlərində solist kimi konsert proqramları ilə uğurlu çıxışlarını edir. Məhz bu illərdən başlayaraq Naibə xanımın pianoçuluq fəaliyyətinin çiçəklənmə dövrü idi desək, zənnimcə yanılmarıq. 1990-cı ildə Konservatoriyanı bitirərək Gəncə Q.Hüseynli adına Orta İxtisas Musiqi məktəbinə müşayiətçi, müəllim kimi, 1992-ci ildə Gəncə Dövlət Filarmoniyasına Xalq Çalğı Alətləri orkestrində solist-müşayiətçi kimi, 2000-2010-cu illərdə isə Kamera Orkestrində I kateqoriyalı solist, müşayiətçi kimi fəaliyyətini davam etdirmişdir. Gəncə şəhərində dövlət qurumları tərəfindən demək olar ki, bütün tədbirlərdə Naibə xanımın ifası hər zaman yüksək







maraq və sevgi ilə qarşılanıb. İstər müxtəlif səpkili ictimai tədbirlər, bələdiyyə, deputat, istərsə də prezident seçkiləri zamanı keçirilən dəstək konsert proqramlarında dəfələrlə tələb duyulan musiqiçilər sırasında olub Naibə xanım. Belə ki, 2009-cu ildə şəhərimizin ictimai həyatında fəal iştirakına görə Azərbaycan Mədəniyyət işçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri Fərmanı və mükafatı ilə təltif olunmuşdur.

Hər birimizə məlumdur ki, xarici ölkələrə səfər edən musiqiçilər, bu ölkənin nümayəndələrinin həm marağına, həmçinin də təəccübünə səbəb olmağı bacarmalıdırlar. Təbii ki, bu səfərlər hər zaman böyük məsuliyyət və zəhmət tələb etmiş olub. Haqqında bəhz etdiyimiz qəhrəmanımız isə özünün yüksək peşəkarlığı, əzmkarlığı və istedadı sayəsində hər zaman bu səfərlərdə öz ifası ilə sözün yaxşı mənasında təəccübləndirməyi bacarmışdır. Belə ki, 2013-cü ildə Cənubi Koreyanın Seul şəhərində Heydər Əliyev Fondunun dəstəyi, Seulda Azərbaycan Səfirliyi və SEBA-mədəni əlaqələr assosiasiyasının təşkilatşılığı ilə Ümummilli Liderimiz Heydər Əliyevin 90 illik yubileyi münasibəti ilə təşkil olunmuş anım tədbirində Ulu Öndərin ən çox sevdiyi və ona həsr olunmuş əsərlərdən ibarət solo konsert proqramı ilə çıxış etmişdir. Bu səfərlərin davamı kimi, 2015-ci ildə "Qarabağ Şikəstəsi İstanbulda" adlı layihə ilə İstanbul Texniki Universitetində konsert proqramı ilə çıxış etmişdir. Elə eyni ildə Cənubi Koreyanın Seul və Concu şəhərlərində Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində keçirilən tədbirdə solist və müşayiətçi kimi çixiş etmişdir.

Naibə Şahməmmədovanın həm pedaqoji, həmçinin də ifaçılıq fəaliyyətinin səmərəli dövrü məhz Azərbaycan Milli Konservatoriyasında çalışdığı dövrə təsadüf edir desək zənnimcə yanılmarıq. 2010-cu ildən Naibə xanım Milli Konservatoriyada konsertmeyster, 2012-ci ildən isə fortepiano müəllimi kimi fəaliyyətə başlamışdır. Bir çox tələbələrin fortepiano alətində həm avropa musiqi ənənələrinin, həmçinin də milli dəyərlərimiz sayılan muğamlarımızın öyrənilməsində bir pedaqoq kimi Naibə xanımın zəhməti danılmazdır.

Naibə Şahməmmədovanın Azərbaycan ifaçılıq və təhsil sahəsində göstərdiyi xidmətlər dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir. 2018-ci ildə Təhsilin inkişafındakı xidmətlərə görə və gənc nəslin təlim tərbiyyəsində yüksək nailiyyətlərə görə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Fəxri Fərman, 2020-ci ildə Azərbaycan Təhsil işçiləri Azad Həmkarlar ittifaqı Respublika Komitəsi tərəfindən Fəxri Farmanla təltif olunmuşdur. Və elə həmin ildə də, Azərbaycan Respublikasının Prezidentinin 31 dekabr 2397 aylı sərəncamına əsasən Əməkdar müəllim fəxri adına laiq görülmüşdür. İnanırıq ki, Naibə xanım hələ uzun illər ərzində öz sənəti ilə neçə-neçə gənc nəslə sənət yolunda örnək olub, öz bənzərsiz ifaları ilə bir çox ürəklərə yol açacaq.